*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2005-ci il 4 iyul tarixli 13/40 saylı Qərarı ilə təsdiq edilmiş, Mərkəzi Seçki Komissiyasının 2010-cu il 22 aprel tarixli 9/46 saylı, 2015-ci il 15 may tarixli 9/82 saylı və və 2024-cü il 2 iyul 16/59 saylı qərarları ilə dəyişikliklər edilmişdir.*

# Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydaları haqqında

# T Ə L İ M A T

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə siyasi partiya və siyasi partiyaların blokları tərəfindən deputatlığa namizədlərin irəli sürülməsi qaydaları Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 54-cü, 146-cı maddələri ilə və bu Təlimatla tənzimlənir.

## 1. Siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən deputatlığa namizədlərin irəli sürülməsi qaydaları

1.1. Namizədin irəli sürülməsi haqqında qərarı siyasi partiya öz nizamnaməsinə uyğun olaraq qəbul edir. Belə qərar kollegial qaydada, səsvermə yolu ilə qəbul edilməlidir.

1.2. Siyasi partiyaların bloku tərəfindən irəli sürülən namizəd bloka daxil olan hər bir siyasi partiya tərəfindən təsdiq edilir. Siyasi partiyaların blokları tərəfindən namizədin irəli sürülməsi haqqında qərar siyasi partiyaların nümayəndələrinin iclasında (qurultayında, konfransında, rəhbər orqanının iclasında) qəbul edilir. Siyasi partiyaların bu səlahiyyətli nümayəndələri partiyaların qurultayında (konfransında, rəhbər orqanının iclasında) müəyyənləşdirilir.

1.3. Namizədin irəli sürülməsi barədə siyasi partiyanın, siyasi partiyalar blokunun qərarı protokolla rəsmiləşdirilir. Həmin protokolda aşağıdakılar göstərilir:

1.3.1. iclasda (qurultayda, konfransda, rəhbər orqanın iclasında) iştirak etmək üçün qeydə alınmış iştirakçıların sayı;

1.3.2. siyasi partiyalar blokunun yaradılması haqqında sazişdə nəzərdə tutulan qərarın qəbul edilməsi üçün lazım olan iştirakçıların sayı;

1.3.3. namizədin irəli sürülməsi barədə qərar və bu qərar üzrə səsvermənin nəticələri;

1.3.4. qərarın qəbul edilməsi tarixi.

1.4. Siyasi partiya, siyasi partiya blokları həmin siyasi partiyanın, habelə bloka daxil olan partiyaların üzvü olmayan şəxsləri də namizəd kimi irəli sürə bilərlər.

## 2. Deputatlığa namizədlərin irəli sürülməsinin təsdiq edilməsi üçün siyasi partiyaların təqdim etməli olduqları sənədlər

2.1. Siyasi partiyalar tərəfindən namizəd və ya namizədlər o şərtlə irəli sürülə bilər ki, aşağıda göstərilən sənədlər Seçki Məcəlləsinə və bu Təlimata uyğun formada siyasi partiyaların səlahiyyətli nümayəndələri tərəfindən namizədin adı ilə birlikdə müvafiq dairə seçki komissiyasına təqdim edilsin:

2.1.1. siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiqlənmiş surəti;

2.1.2. siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiqlənmiş surəti;

2.1.3. namizədin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı və müvafiq iclasın protokolu;

2.1.4. hər bir namizədin irəli sürülməsi barədə ayrı-ayrılıqda tərtib edilmiş bildiriş (Təlimata 1 ”a” saylı əlavə);

2.1.5. deputatlığa namizədliyi irəli sürülən şəxslərin tərcümeyi-halına (soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü)), məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatları əks etdirən, habelə deputat seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi (Təlimata 1 saylı əlavə);

2.1.6. səlahiyyətli nümayəndələrin təyin edilməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı;

2.1.7. siyasi partiyanın səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş vəkalətnamələri (Təlimata 6 saylı əlavə);

2.1.8. siyasi partiyaların səlahiyyətli nümayəndələrinin siyahısı (Təlimata 2 saylı əlavə);

2.1.9. siyasi partiyaların səlahiyyətli orqanı səlahiyyətli nümayəndənin səlahiyyətlərinə xitam verdiyi halda, bu barədə qərarın surəti.

2.2. Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış səlahiyyətli nümayəndəyə verilir (Təlimata 7 saylı əlavə).

2.3. Siyasi partiyalar tərəfindən Mərkəzi Seçki Komissiyasına aşağıdakı sənədlər təqdim edilməlidir:

2.3.1. siyasi partiyaların səlahiyyətli nümayəndələrinin siyahısı (Təlimata 2 saylı əlavə);

2.3.2. maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin siyahısı

(Təlimata 3 saylı əlavə);

2.3.3. səlahiyyətli nümayəndələrin razılıq məktubu (Təlimata 4 saylı əlavə);

2.3.4. maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin razılıq məktubu (Təlimata 5 saylı əlavə).

**Qeyd:** *siyasi partiyaların qərarı ilə təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin vəkalətnamələri də Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulan qaydada və bu Təlimata 6 "a" saylı əlavədə göstərilən formada rəsmiləşdirilir.*

## 3. Deputatlığa namizədlərin irəli sürülməsinin təsdiq edilməsi üçün siyasi partiyalar blokunun təqdim etməli olduqları sənədlər

3.1. Siyasi partiyaların bloku tərəfindən namizəd və ya namizədlər o şərtlə irəli sürülə bilər ki, aşağıda göstərilən sənədlər Seçki Məcəlləsinə və bu Təlimata uyğun formada hazırlanaraq, namizədin adı ilə birlikdə müvafiq dairə seçki komissiyasına təqdim edilsin:

3.1.1. siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların qurultaylarının (konfranslarının, rəhbər orqanının iclasının) namizəd irəli sürmək barədə qərarları ilə birlikdə müvafiq iclasların protokolları;

3.1.2. siyasi partiyaların blokuna daxil olan siyasi partiya nümayəndələri iclasının (qurultaylarının, konfranslarının) siyasi partiyaların bloku adından namizəd irəli sürülməsi haqqında qərarı və müvafiq iclasın protokolu;

3.1.3. hər bir namizədin irəli sürülməsinə dair ayrı-ayrılıqda tərtib edilmiş bildiriş (Təlimata 1 "a" saylı əlavə);

3.1.4. siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin notariat qaydasında və ya Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş vəkalətnamələri (Təlimata 6 "b" və 6 "c" saylı əlavələri);

3.1.5. siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin siyahısı (Təlimata 2 saylı əlavə);

3.1.6. deputatlığa namizədliyi irəli sürülən şəxslərin tərcümeyi-halına (soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü)), məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatları əks etdirən, habelə deputat seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi (Təlimata 1 saylı əlavə).

3.2. Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış səlahiyyətli nümayəndəyə verilir (Təlimata 7 saylı əlavə).

**Qeyd:** *Mərkəzi Seçki Komissiyasında qeydə alındıqları zaman, habelə qeydə alındıqdan sonra səlahiyyətli nümayəndə və maliyyə məsələləri üzrə səlahiyyətli*

*nümayəndə təyin edilibsə, siyasi partiyaların bloku da bu Təlimatın 2.3.1–2.3.4-cü bəndlərində nəzərdə tutulan sənədləri təqdim etməlidir. Siyasi partiyalar bloklarının maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin vəkalətnamələri bu Təlimatın 6 ”ç” və 6 ”d” saylı əlavələrində göstərilən formalarda rəsmiləşdirilir.*

______________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*
tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizəd irəli sürülmüş
______________________________________
*(soyadı, adı, atasının adı)*
namizədliyinin irəli sürülməsinə dair

**R A Z I L I Q  Ə R İ Z Ə S İ**

Mən, "___" ____________ _____ il tarixdə anadan olmuş ______________
*(doğum tarixi)*
____________________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*
__________________________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti)*
_______________________ təhsilli, ________________________________________
*(təhsili haqqında məlumat)* *[əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü)]*
____________ işləyən və ya fəaliyyət göstərən, ___________________________
*(namizədin soyadı, adı, atasının adı)*
bildirirəm ki, ödənilməmiş və ya üzərimdən götürülməmiş məhkumluğum
____________________________________________________________________
*(olub-olmamasına dair məlumat)*

Ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda:
______________________________________________________________________
*(Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi, xarici ölkədə cinayət məsuliyyəti yaradan*
______________________________________________________________________
*əməl olmuşdursa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl Azərbaycan Respublikasının*
______________________________________________________________________
*Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa, xarici ölkənin müvafiq qanununun adı)*

Azərbaycan Respublikasının vətəndaşıyam, seçkilərdə iştirak etmək hüququna malikəm, ikili vətəndaşlığım və başqa ölkələr qarşısında öhdəliklərim ______________________________________ .
*(olub-olmamasına dair məlumat)*

İkili vətəndaşlığı və ya başqa ölkələr qarşısında öhdəliyi olduqda:
____________________________________________________________________
*(həmin ölkənin adı və öhdəliyin məzmunu)*
__________________________ tarixdə keçiriləcək Azərbaycan Respublikasının
*(seçkinin keçiriləcəyi tarix)*
Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyimin irəli sürülməsinin mənim iradəmə uyğunluğunu bildirirəm və deputat seçiləcəyim halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyimi öhdəmə götürürəm.
__________________________________________________________ üzvüyəm,
*(mənsub olduğu siyasi partiyanın adı və abreviaturası)*

deputatlığa namizədliyim qeydə alındığı halda, seçki bülletenində siyasi partiyaya mənsubiyyətim ________________________________________ .

*(göstərilib-göstərilməməsinə dair məlumat)*

______________ ________________________________

*(imza)* *(soyadı, adı və atasının adı)*

"_____" _____________ 20____ il

**Qeyd:** *Azərbaycan Respublikası Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələbinə uyğun olaraq razılıq ərizəsinə namizədin 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkli əlavə olunmalıdır.*

*Təlimata 1 “a” saylı əlavə*

____ saylı ___________________________
___________________ seçki dairəsinin dairə
seçki komissiyasına

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Respublikası vətəndaşının siyasi partiya (siyasi partiyaların bloku) tərəfindən deputatlığa namizədliyinin irəli sürülməsi haqqında**

**B İ L D İ R İ Ş**

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 54-cü və 146-cı maddələrinə uyğun olaraq _____________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*
tərəfindən Azərbaycan Respublikasının vətəndaşı _________________ ildə
*(doğulduğu gün, ay və il)*
anadan olmuş, _________________________________ ünvanında yaşayan,
*(yaşayış yerinin ünvanı)*
_______________________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi va ya etibarlılıq müddəti)*
_____________________________________________________________
*[əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü)]*
_____________________________________________________________
*(soyadı, adı, atasının adı)*
__________________________ təyin olunmuş Azərbaycan Respublikasının
*(seçkilərin keçiriləcəyi tarix)*
Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyi irəli sürülür.

Bildirişə namizədin öhdəliyi göstərilmiş razılıq ərizəsi əlavə olunur.

**Siyasi partiyanın (siyasi partiyalar blokunun) səlahiyyətli nümayəndəsi** ____________ _____________________
*(imza)* *(inisialı və soyadı)*

“___” ___________ 20___ il
*(bildirişin verilmə tarixi)*

**Qeyd:** *bu bildirişin surəti Azərbaycan Respublikası Seçki Məcəlləsinin 157.3-cü maddəsinə uyğun olaraq dairə seçki komissiyası tərəfindən təsdiq edilərək müvafiq səlahiyyətli nümayəndəyə verilir.*

*Təlimata 2 saylı əlavə*

________________________________________
*(seçki komissiyasının adı)*

________________________________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

**siyasi partiya, siyasi partiyaların bloku tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndələrin**

# S İ Y A H I S I

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli şəxs** ________________ ____________________________________
*(imza)* *(inisialı və soyadı)*

**Qeyd:** *bu siyahı Mərkəzi Seçki Komissiyasına və müvafiq dairə seçki komissiyalarına təqdim edilir.*

*Təlimata 3 saylı əlavə*

________________________________________
*(seçki komissiyasının adı)*

__________________________________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

**siyasi partiya, siyasi partiyaların bloku tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin**

# S İ Y A H I S I

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli şəxs** _______________ ___________________________________
*(imza)* *(inisialı və soyadı)*

**Qeyd**: *bu siyahıya maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin razılıq ərizələri və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələbinə uyğun olaraq 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*
*Bu siyahı yalnız Mərkəzi Seçki Komissiyasına təqdim edilir.*

*Təlimata 4 saylı əlavə*

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə namizəd irəli sürmüş

______________________________________
*(siyasi partiyanın,*

______________________________________
*siyasi partiyalar blokunun adı)*

səlahiyyətli nümayəndəsi ______________
*(soyadı,*

______________________________________
*adı, atasının adı)*

**R A Z I L I Q   M Ə K T U B U**

Mən, ________________ tarixdə keçiriləcək Azərbaycan Respublikasının
*(seçkinin keçiriləcəyi tarix)*
Milli Məclisinə seçkilərdə yuxarıda adı göstərilən siyasi partiya, siyasi partiyaların bloku tərəfindən səlahiyyətli nümayəndə təyin olunmağıma razılıq verirəm.

Bildirirəm ki, "____" __________ ____ ildə anadan olmuşam, ________
*(doğum tarixi)*

______________________________________________________________
*[şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi va ya etibarlılıq müddəti,*

______________________________________________________________
*yaşayış yerinin ünvanı, əsas iş və ya xidmət yeri,*

______________________________________________________________
*tutduğu vəzifəsi (bu olmadıqda – fəaliyyət növü), telefon nömrəsi]*

_________________ *(imza)*    ______________________________ *(səlahiyyətli nümayəndənin inisialı və soyadı)*

"____" ____________ 20____ il
*(ərizənin verilmə tarixi)*

**Qeyd**: *1. Bu məktub siyasi partiyanın, siyasi partiyaların bloku tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndələrin Mərkəzi Seçki Komissiyasına göndərilməli olan siyahısına əlavə edilir.*
*2. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələbinə uyğun olaraq razılıq məktubuna səlahiyyətli nümayəndənin 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkli əlavə edilməlidir.*

*Təlimata 5 saylı əlavə*

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə namizəd irəli sürmüş

______________________________________

*(siyasi partiyanın,*

______________________________________

*siyasi partiyalar blokunun adı)*

maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi _________________________

*(soyadı,*

______________________________________

*adı, atasının adı)*

**R A Z I L I Q   M Ə K T U B U**

Mən, _______________ tarixdə keçiriləcək Azərbaycan Respublikasının
*(seçkilərin keçiriləcəyi tarix)*
Milli Məclisinə seçkilərdə yuxarıda adı göstərilən siyasi partiya, siyasi partiyaların bloku tərəfindən maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmağıma razılıq verirəm.

Bildirirəm ki, "____" __________ ____ ildə anadan olmuşam, _________
*(doğum tarixi)*

______________________________________________________________

*[şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi va ya etibarlılıq müddəti,*

______________________________________________________________

*yaşayış yerinin ünvanı, əsas iş və ya xidmət yeri,*

______________________________________________________________

*tutduğu vəzifəsi (bu olmadıqda – fəaliyyət növü), telefon nömrəsi]*

________________   ____________________________________

*(imza)*   *(maliyyə məsələləri üzrə səlahiyyətli ümayəndənin inisialı və soyadı)*

"____" ___________ 20___ il
*(ərizənin verilmə tarixi)*

**Qeyd**: *1. Bu məktub siyasi partiyanın, siyasi partiyaların bloku tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin Mərkəzi Seçki Komissiyasına göndərilməli olan siyahısına əlavə edilir.*
*2. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələbinə uyğun olaraq razılıq məktubuna maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkli əlavə edilməlidir.*

*Təlimata 6 saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

______________________________________________________________
*(siyasi partiyanın adı)*

“___” _________ 20___ il tarixli qurultayının (konfransının, rəhbər orqanının iclasının) _____ saylı qərarına əsasən _________________________________

______________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

_________________________________________________________ malik
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi va ya etibarlılıq müddəti)*

____________________________________ “___”_________20 __ il tarixə
*(soyadı, adı, atasının adı)*

təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə həmin siyasi partiyanın səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

_____________________________________ _____________
*[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]* *(imza)*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

# V Ə K A L Ə T N A M Ə

______________________________________________________________

*(siyasi partiyanın adı)*

“___” _________20___il tarixli qurultayının (konfransının, rəhbər orqanının

iclasının) _____ saylı qərarına əsasən ______________________________

_______________________________________________________ yaşayan,

*(yaşayış yerinin ünvanı)*

__________________________________________________________ malik

*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi va ya etibarlılıq müddəti)*

_______________________________________________________________

*(soyadı, adı, atasının adı)*

“___”_________20 ___ il tarixə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə həmin siyasi partiyanın maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

_____________________________________ ____________

*[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]* *(imza)*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 6 “b” saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

___________________________ siyasi partiyalar bloku nümayəndələrinin
*(siyasi partiyalar blokunun adı)*

iclasının “____” ____________ 20___ il tarixli _____ saylı qərarına əsasən

__________________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

_____________________________________________________________ malik
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi va ya etibarlılıq müddəti)*

__________________________________________ “___”________20 __ il tarixə
*(soyadı, adı, atasının adı)*

təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə həmin siyasi partiyalar blokunun adından səlahiyyətli nümayəndə qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

Siyasi partiyaların blokuna daxil olan partiyaların sədrləri:

1. __________________________________________ ____________
*[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]* *(imza)*

2. __________________________________________ ____________
*[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]* *(imza)*

3. __________________________________________ ____________
*[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]* *(imza)*

...

__________________________________________ ____________
*[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]* *(imza)*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

# V Ə K A L Ə T N A M Ə

____________________________ siyasi partiyalar bloku nümayəndələrinin
*(siyasi partiyalar blokunun adı)*

iclasının "____" _____________ 20____ il tarixli ____ saylı qərarına əsasən

____________________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

______________________________________________________________ malik
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi va ya etibarlılıq müddəti)*

_______________________________________ "___" __________20 ___ il tarixə
*(soyadı, adı, atasının adı)*

təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə həmin siyasi partiyalar blokunun adından səlahiyyətli nümayəndə qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

_______________________________________________ ____________
*(vəkalətnamənin notarial qaydasında rəsmiləşdirilməsi həvalə edilmiş nümayəndənin soyadı, adı, atasının adı)* *(imza)*

**Qeyd:** *1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

# V Ə K A L Ə T N A M Ə

__________________________ siyasi partiyalar bloku nümayəndələrinin
*(siyasi partiyalar blokunun adı)*

iclasının “____” ____________ 20____ il tarixli ____ saylı qərarına əsasən

_______________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

___________________________________________________________ malik
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi va ya etibarlılıq müddəti)*

__________________________________“___”___________20 ___ il tarixə
*(soyadı, adı, atasının adı)*

təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə həmin siyasi partiyalar blokunun adından maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

____________________________________________ ___________
*(vəkalətnamənin notarial qaydasında rəsmiləşdirilməsi həvalə edilmiş nümayəndənin soyadı, adı, atasının adı)* *(imza)*

**Qeyd:** *1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.*
*2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 6 "d" saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

________________________________________ siyasi partiyalar blokunun
*(siyasi partiyalar blokunun adı)*

nümayəndələrinin "___" _____________ 20 ___ il tarixli iclasının ____ saylı

qərarına əsasən ____________________________________________
*(yaşayış yerinin ünvanı)*
yaşayan, _______________________________________________ malik
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi va ya etibarlılıq müddəti)*

____________________________________________________________
*(soyadı, adı, atasının adı)*

"____"_______________ 20___ il tarixə təyin edilmiş _________________
*(seçkinin adı)*
seçkilərində həmin siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

Siyasi partiyaların blokuna daxil olan partiyaların sədrləri:

1. ______________________________________________________
*partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) adı, soyadı, atasının adı*
2. ______________________________________________________
*partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) adı, soyadı, atasının adı*
3. ______________________________________________________
*partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) adı, soyadı, atasının adı*

.
.
.

______________________________________________________
*partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) adı, soyadı, atasının adı*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 7 saylı əlavə*

# A R A Y I Ş

"____"__________ 20 ___ il

Saat __________

Verilir ________________________________________ ondan ötrü ki,
*(sənədləri təqdim edən şəxsin soyadı, adı, atasının adı)*

o, həqiqətən ____________________________ Azərbaycan Respublikasının
*(namizədin soyadı, adı, atasının adı)*

Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi üçün aşağıdakı sənədləri ____ saylı __________________________
*(seçki dairəsinin adı)*

seçki dairəsinin dairə seçki komissiyasına təqdim etmişdir:

1.
2.
3.
4.
5.
6.

**Dairə seçki komissiyasının sədri** ___________ ______________________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

M.Y.

**Dairə seçki komissiyasının üzvü** ___________ ______________________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

**Sənədləri təqdim edən şəxs** ___________ ______________________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

**Qeyd:** *sənədləri müvafiq dairə seçki komissiyasına siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi təqdim edə bilər.*
*Bu arayış 2 nüsxədən ibarət tərtib edilməli, 1 nüsxəsi dairə seçki komissiyasında qalmalı, digər nüsxəsi isə sənədləri təqdim edən şəxsə verilməlidir.*